Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarovun 2014-cü ilin noyabr ayında Parisə işgüzar səfəri zamanı Fransanın müvafiq dövlət qurumları ilə iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi mövzusunda müzakirələr aparılmışdı. Prosesin davamı olaraq fevralın 27-də Parisdə keçiriləcək "Azərbaycan günü" tədbirinin əsas məqsədi Azərbaycan və Fransa ali təhsil müəssisələri arasında ikitərəfli əlaqələri inkişaf etdirmək, tələbə və müəllim mübadiləsi və birgə proqramların həyata keçirilməsi imkanlarını dəyərləndirməkdən ibarətdir.

Təhsil nazirinin müavini Firudin Qurbanovun rəhbərlik edəcəyi nümayəndə heyətinin tərkibinə ölkəmizin bir sıra aparıcı ali təhsil müəssisələrinin rektorları daxildir.

"Azərbaycan günü"ndə 20-yə yaxın Fransa ali təhsil müəssisəsi Azərbaycan ali təhsil sistemi üçün maraq kəsb edən birgə layihələr barədə təqdimatlar keçirəcəklər. Eyni zamanda, tədbir çərçivəsində Avropa İttifaqına daxil olan ölkələrin vətəndaşlarına da Azərbaycan universitetlərində təhsil almaq imkanları təqdim olunacaqdır.